ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1009.

UOT:330.3

# AZƏRBAYCANDA SAHİBKARLIĞIN MÖVCUD VƏZİYYƏTİNİN İQTİSADİ TƏHLİLİ

Fariz Vidadi Süleymanov [1], Cəlal Yunis Yusifov [2]

**XÜLASƏ**

**Tədqiqatın məqsədi –** milli iqtisadiyyatın vacib təkanverici subyekti kimi çıxış edən sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəricilərinin mövcud vəziyyətinin iqtisadi qiymətləndirilməsidir.

**Tədqiqatın metedologiyası –** tədqiqatın aparılması zamanı əsasən riyazi statistik üsullardan faydalanılmışdır. Burada daha çox riyazi analiz, statistik təhlil üsullarına baş vurulmuşdur.

**Tədqiqatın tədbiqi əhəmiyyəti –** bu sahədə gələcəkdə işlənilməsi, yerinə yetirilməsi nəzərdə tutulan elmi işlərdə istifadə oluna bilər. Bundan başqa sahibkarlıq sahəsində son illər baş verən dəyişikliklərdən xəbərdar olmaq, bazar analizi aparmaq istəyən tərəflər tədqiqatın nəticələrindən istifadə edə bilər.

**Tədqiqatın nəticələri –** tədqiqatın aparılmasından əldə edilən nəticə göstərir ki, ölkəmizdə sahibkarlıq subyektlərinin son illər həm yaratmış olduğu dəyərin kəmiyyətində, həm nominal əmək haqlarının həcmində əsaslı artımlar olmuşdur. Bundan başqa son beş ilin məlumatının təhlili bizə iqtisadi məşğulluqda sahibkarlığın vacib rolu olduğunu bizə göstərdi.

**Tədqiqatın elmi yeniliyi –** tədqiqatın aparılması zamanı sahibkarlıq sahəsində əsas kapitala investisiya qoyuluşlarının kəmiyyətinin son illər azaldığı müəyyən edilmişdir. Bu isə sahəyə gələcəkdə daha geniş maliyyə təminatı üzrə imkanların yaradılmasını zəruri edir.

**Açar sözlər:** *sahibkarlıq, dövlət dəstəyi, maliyyə təminatı, investisiya, iqtisadi artım*

**Giriş.** İqtisadiyyatın əsas təkanverici mövqeyində dayanan sahibkarlıq subeyktlərinin əsas makroiqtisadi göstəricilərində baş verən müxtəlif istiqamətli dəyişikliklər, iqtisadi inkişafın və ya durğunluğun göstəricisi kimi ayırd edilir. Belə ki, iqtisadi fəaliyyət sahələrinin əsas idarəçilik metodunun məhz sahibkarlıq formasında reallaşdırılması bu sahədə müxtəlif iqtisadi göstəricilərin yüksəldilməsini zəruri edir. Hazırda dünyanın bir çox ölkələrində olduğu kimi ölkəmizdə də sahibkarlığın inkişafının yeni üsullarının tədqiq edilməsi əsas tərəf kimi müəyyən edilir (Niftullayev, 2002). Bu halı zəruri edən digər amil təkcə sahibkarlıq subyektlərinin ərzaq təhlükəsizliyi üzrə oynadığı vacib roldan irəli gəlmir, həm də qeyri-ərzaq məhsulları üzrə təminatından yüksəldilməsindən irəli gəlir.

Kənd təsərrüfatı sahəsi milli iqtisadiyyatın ərzaq təminatının əsas hissəsini özündə birləşdirdiyindən bu sahədə yaradılacaq sahibkarlıq subyektlərinin müxtəlif istiqamətlər üzrə inkişaf etdirilməsi əslində məhsul buraxılışının həcminin kəskin artmasına təsir etdiyi kimi həm də əsaslı şəkildə keyfiyyət yüksəlişinə gətirib çıxara bilir. Hazırda ölkəmizdə sahibkarlıq subyektlərinin iqtisadiyyatdakı vacib rolunu nəzərə alaraq müxtəlif istiqamətli dəstəkləyici tədbirlərlə himayə edilməsi sahəsindən müxtəlif işlər görülməkdədir. Müasir vaxtda milli iqtisadiyyatın təkanverici mövqeyində dayanan mikro, kiçik sahibkarlıq subyektlərinin əsas dəstəkləmə istiqamətləri sırasında maliyyə, texniki, hüquqi, konsaltinq, logistika, bazar analizi və satış sahəsində verilən dəstəklər vacib əhəmiyyət kəsb edir (Mustafayeva, 2022). Dövlətin kiçik sahibkarlığın maliyyə üzrə üzləşilən çətinliklərinin həlli sahəsində verdiyi dəstəkləyici tədbirlər sırasına, banklar tərəfindən verilən az faizli kreditlər, ödəniş şərtləri (müəyyən müddətə əsas kredit məbləği deyil kredit faizləri ödənilir) üzrə edilən güzəştlər aiddir.

[1] Əsas müəllif/Corresponding author: Fariz Vidadi oğlu Süleymanov, ADAU, Gəncə şəhəri, e-mail: farizsuleymanov649@gmail.com
[2] Cəlal Yunis oğlu Yusifov, ADAU, Gəncə şəhəri

ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1009.

Dövlətin bu cür siyasəti adətən müvəkkil kredit təşkilatları tərəfindən reallaşdırılır. Ancaq burada öncədən müəyyən meyarlar ayırd edilir və həmin meyarlara cavab verən sahibkarlara kredit verilməsinə əsas tərəf kimi qəbul edilir. Belə olduğu halda, yerli sahibkarlıq subyektləri əsas kapitala investisiya qoyuluşlarının artırılması hesabına istehsalın həm həcmində, həm də keyfiyyətində müsbət dəyişikliklər tez nail ola bilir (Salahov, 2005).

Ölkəmizdə sahibkarlıq sahəsində mövcud vəziyyəti təhlil edərkən ilk öncə burada sahibkarlıq subyektlərinin sayında illər üzrə necə bir dəyişikliyin olmasını təhlil etmək vacibdir. Bunu nəzərə alaraq diaqram 1-də son beş ildə ölkəmizdə növlər üzrə sahibkarlıq subyektlərinin sayındakı dəyişikliyə yer verilmişdir. Görülən odur ki, ölkəmiz də mövcud olan sahibkarlıq subyektlərinin əsaslı hissəsini məhz mikro sahibkarlıq subyektləri təşkil edir. 2018-ci ildə ölkəmizdə mövcud olan sahibkarlıq subyektlərinin təqribən 97.1%-ni mikro sahibkarlıq subyektləri, 2.0%-ni kiçik, geridə qalan 0.9%-ni isə orta sahibkarlıq subyektəri təşkil etmişdir. 2018-ci il ilə müqayisədə hesabat ilində, yəni 2022-ci ildə mikro sahibkarlıq subyektlərinin sayı fiziki kəmiyyətlə ifadə də 129 min 128 vahid artmışdır. Artımın nisbi kəmiyyətlə qarşılığı 47.1% olmuşdur. Baza ili ilə müqayisədə 2022-ci ildə kiçik sahibkarların sayındakı artım 2830 vahid və ya 58.1% təşkil etmişdir. Orta sahibkarların son beş ildə sahındakı artım isə 1000 vahid və ya 46.7% səviyyəsində olmuşdur (7).

**Diaqram 1.Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı**




***Mənbə:*** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Diaqram 1-in təhlili bizə göstərir ki, son illər ölkəmizdə mikro sahibkarlıq subyektlərinin sayında əsaslı artımlara nail olunmuşdur. Bu hala təsir edən başlıca məqamları aşağıdakı kimi sıralamaq olar:

- ✓ sahibkarlıq fəaliyyətinin istiqamətindən asılı olaraq onun müəyyən dövr ərzində, müxtəlif səviyyələrdə vergi güzəştləri, azadolmaları ilə (aqrar sektor) himayə etmək;
- ✓ sahibkarlıq subyetlərinin maliyyə təminatının yaxşılaşdırılması məqsədilə verilən maliyyə dəstəkləri;

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1009.

- ✓ daxili və xarici bazara çıxış qarşısında dayanan istər texniki, istər maliyyə, istərsə də hüquqi maneələrin aradan qaldırılmasına dəstəyin ifadə edilməsi;
- ✓ müəyyən qurup məhsulların tədarükçüsü qismində dövlətin özünün çıxış etməsi;
- ✓ istehsal texniki vasitələrin alışında və ya onların idxalı zamanı həm subsidiyalar şəklində, həm də gömrük azadolmalarının şəklində güzəştlərin tətbiqi və.s (Abbasov, 2017).

Qeyd edilən tədbirlərin, güzəştlərin sayını artırmaq mümkündür. Ancaq tədqiqatın lokanikliyini nəzərə alaraq, qeyd edilən əsas dəstək formalarının yetərli olduğunu düşünürük. Ölkəmizin sahibkarlıq sahəsində mövcud vəziyyət haqqında məlumatlı olmaq məqsədilə diaqram 2-də sahibkarlıq subyektlərinin əsas göstəricilərinə yer verilmişdir. Görülən odur ki, 2018-ci ildə sahibkarlıq subyektləri tərəfindən yaradılan əlavə dəyərin kəmiyyəti 9.8 mlrd manat həcmində olmuşdur. Eyni ildə əsas kapitala investisiya qoyuluşlarının həcminə nəzər etdikdə aydın olur ki, əsas kapitala investisiya qoyuluşlarının həcmi 6.9 mlrd manat kəmiyyətində olmuşdur ki, bu da olduqca yaxşı qiymətləndirilə bilinər. Bir sonrakı ilə baxdığımızda burada yaradılmış əlavə dəyərin kəmiyyəti 2018-ci il ilə müqayisədə, 2019-cu ildə 12.2% artaraq təqribən 11.1 mld manata çatmışdır. Eyni illərin müqayisəsində əsas kapitala investisiya qoyuluşlarının kəmiyyəti 2.03 dəfə azalmışdır (Salahov, 2005).Baş verən dəyişikliklərin yaradılmış əlavə dəyərdə müsbət, edilən investisiyalarda isə əksinə azalma göstərməsinin səbəbini müəyyən etmək vacibdir. Əvvəla burada baş verən azalmanın əsas iki səbəbini ayırd etmək olar. Onlardan biri öncəki illərdə kiçik sahibkarlıq sahəsində əsas kapitalın yenilənməsinə sərf edilən vəsaitlərin yüksək olmasından irəli gəlir. Bu hal onunla əlaqəlidir ki, əvvəlki dövrlərdə yüksək investisiya etmiş kiçik sahibkarlıq subyektləri istehsal vasitələrinin əsaslı hissəsinin yenilənməsinə nail olmuşdur.

**Diaqram 2: Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəriciləri (ümumi cəm götürülmüşdür)**




***Mənbə:*** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

1. Digər məsələ burada yerli maliyyə kredit təşkilatları tərəfindən az faizli kreditlərin verilməsi heç də onların maraqlarını təmin etmir. Odur ki, kiçik biznes sahəsində investisiya qoyuluşlarının ötən dövr ərzində azalması təbii haldır. Müqayisəni 2019-cu ilə

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1009.

nisbətdə, 2020-ci il üzrə aparsaq onda görərik ki, həm yaradılmış əlavə dəyərin kəmiyyətində (1.2%), həm əsas əsas kapitala yönləndirilən investisiyaların həcmində (28.1%) azalma olmuşdur. Azalmanın hər iki istiqamət üzrə baş verməsi həmin dövrdə baş verən məlum pandemiyanın təsiri ilə əlaqələndirilə bilinər. Ancaq bir sonrakı ilə baxdığımızda 2021-ci ildə bunun əksini görürük, yəni həm yaradılmış əlavə dəyərin xüsusi çəkisində, həm də əsas kapitala edilən investisiyaların həcmində 2020-ci il ilə müqayisədə artıma nail olunmuşdur. Bir öncəki ilə nisbətdə 2021-ci ildə yaradılmış əlavə dəyərin kəmiyyəti 27.5%, əsas kapitala edilən investisiya qoyuluşları isə 26.5% yüksəlmişdir. Hesabat ilinə baxdığımızda 2021-ci ilə nisbətdə, 2022-ci ildə sahibkarlıq subyektləri tərfindən yaradılan əlavə dəyərin həcmi 23.1% artmış, bunun əksinə əsas kapitala qoyulan investisiyaların kəmiyyəti isə 16.6% azalmışdır (https://www.smb.gov.az/az ). Diaqramın təhlili göstərir ki, əslində sahibkarlıq subyektlərinin fəaliyyətinin nəticəsi kimi yaradılmış əlavə dəyərin kəmiyyəti artsa da, bunun əksinə əsas kapital qoyulan investsiyaların həcmində müəyyən dərəcədə azalmalar baş vermişdir. Bu hal bizdə dövlətin sahibkarlıq fəaliyyətinin dəstəklənilməsi sahəsində maliyyə siyasətinə diqqətinin artırılmasına ehtiyyac yarandığı haqqında fikir formalaşdırır. Sahibkarlıq subyektinin mövcud vəziyyətinin hərtərəfli təhlilini reallaşdırmaq məqsədilə digər əsas makroiqtisadi göstəricilərə diaqram 3-də yer verilmişdir.

**Diaqram 3: Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəriciləri (ümumi cəm və orta kəmiyyətlər seçilmişdir)**




***Mənbə:*** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Diaqram 3-də sahibkarlıq sahəsində çalışan əmək ehtiyyatlarının son beş ildə mövcud sayına və müvafiq illər üzrə nominal əmək haqları səviyyəsinə yer verilmişdir. 2018-ci ilə diqqət edilən zaman aydın olur ki, sözügedən ildə sahibkarlıq sahəsində məşğul olan iqtisadi fəal əhalinin (işçi və ya sahibkar kimi) sayı 283.4 min nəfər olmuşdur. Həmin dövrdə nominal əmək haqlarının kəmiyyəti 445.3 manat olmuşdur ki, bu da həmin dövr üçün orta göstərici kimi qəbul edilə bilinər. 2018-ci il ilə 2020-ci ili qarşılaşdırdığımızda burada nominal əmək haqlarının kəmiyyətinin 31.1%, iqtisadi məşğul əmək ehtiyyatlarının isə 21.9% artdığını görə

bilərik. Müqayisəni hesabat ili ilə apardığımızda aydın olur ki, 2021-ci il ilə müqayisədə 2022-ci ildə sahibkarlıq sahəsində fəaliyyət göstərənlərin əmək haqlarındakı nominal artım 11.8%, burada çalışan işçilərin sayındakı yüksəliş isə 3.6 % olmuşdur. Müqayisəni son beş ilin göstəriciləri üzrə aparsaq onda müəyyən edərik ki, 2018-ci il ilə nisbətdə 2022-ci ildə nominal əmək haqlarının kəmiyyəti 58.8%, burada çalışan əmək ehtiyyatlarının kəmiyyəti isə 30.7% artmışdır (Salahov, 2005 ). Bu isə müsbət hal kimi qiymətləndirilə bilinər. Artıma təsir edən hallara sahibkarlıq subyektlərinin son illər daha mütərrəqi üsullarla təşkili və fəaliyyətinin diversifikasiya etməsi aid edilə bilinər.

**Yekun nəticə.** Tədqiqatın aparılmasından aydın olur ki, milli iqtisadiyyatın dayanıqlığının təmin edilməsində sahibkarlıq fəaliyyətinin xüsusi rolu vardır. Burada istehsal edilən əmtəə və xidmətlərin xüsusi çəkisinin artması, onun yeni keyfiyyət xüsusiyyəti qazanması məhz sahibkarlıq sahəsində aparılan uğurlu dövlət siyasəti ilə öz həllini tapır. Odur ki, sahibkarlıq fəaliyyətinin əsas növ makroiqtisadi göstəricilərində müsbət dəyişikliklərə nail olunması bilavasitə dövlət siyasəti ilə düz mütənasib şəkildə qarşılıqlı əlaqədədir.

## Ədəbiyyat siyahısı

2. “Sahibkarlıq fəaliyyəti haqqında” AR-nın qanunu. Bakı, 15 dekabr 1992-ci il
3. Abbasov V., (2017) Aqrar iqtisadiyyat. Bakı. 468 s
4. Mustafayeva R., (2022) Aqrar iqtisadiyyat. Bakı. 304 s
5. Niftulayev V., (2002) Sahibkarlığın əsasları. Bakı. 618
6. Salahov S., (2005) Aqrar sahənin dövlət tənzimlənməsi.Bakı. 503 s
7. http://www.azstat.org
8. https://www.smb.gov.az/az

## ECONOMIC ANALYSIS OF THE CURRENT SITUATION OF ENTREPRENEURSHIP IN AZERBAIJAN

### SUMMARY

**The purpose of the research -** It is an economic assessment of the current state of the main macroeconomic indicators of business entities that act as an important driving force of the national economy.

**The methodology of the research -** mainly mathematical statistical methods were used during the research. Many mathematical analysis and statistical analysis methods are used here.

**The practical importance of the research -** it can be used in scientific works that are planned to be developed and performed in the future in this field. In addition, the parties who want to be aware of the changes that have taken place in the field of entrepreneurship in recent years and want to conduct a market analysis can use the results of the research.

**The results of the research -** the result obtained from the research shows that in recent years, there have been substantial increases in the amount of value created by business entities in our country, as well as in the volume of nominal wages. In addition, the analysis of the data of the last five years showed us that entrepreneurship plays an important role in economic employment.

**The scientific novelty of research -** during the research, it was determined that the amount of capital investments in the field of entrepreneurship has decreased in recent years. This makes it necessary to create opportunities for wider financial support for the field in the future.

**Keywords:** entrepreneurship, state support, financial support, investment, economic growth

ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1009.

# ЭКОНОМИЧЕСКИЙ АНАЛИЗ СОВРЕМЕННОЙ СИТУАЦИИ ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ


## РЕЗЮМЕ

**Цель исследования -** Это экономическая оценка текущего состояния основных макроэкономических показателей субъектов хозяйствования, которые выступают важной движущей силой национальной экономики.

**Методология исследования -** В ходе исследования использовались преимущественно математические статистические методы. Здесь используются многие методы математического анализа и статистического анализа..

**Важность исследовательского приложения -** может быть использован в научных работах, которые планируется разработать и выполнить в будущем в этой области. Кроме того, результатами исследования могут воспользоваться стороны, желающие быть в курсе изменений, произошедших в сфере предпринимательства за последние годы, и желающие провести анализ рынка.

**Результаты исследования -** Полученный результат исследования показывает, что за последние годы произошло существенное увеличение суммы стоимости, создаваемой субъектами предпринимательства в нашей стране, а также объема номинальной заработной платы. Кроме того, анализ данных последних пяти лет показал нам, что предпринимательство играет важную роль в экономической занятости.

**Научная новизна исследования -** в ходе исследования установлено, что объем капитальных вложений в сфере предпринимательства за последние годы снизился. Это делает необходимым создание возможностей для более широкой финансовой поддержки отрасли в будущем.


**Ключевые слова:** предпринимательство, государственная поддержка, финансовая поддержка, инвестиции, экономический рост.

*Məqalə daxil olmuşdur: 12.06.2024*
*Təkrar işləməyə göndərilmişdir: 14.06.2024*
*Çapa qəbul edilmişdir: 16.07.2024*

*Дата поступления статьи в редакцию: 12.06.2024*
*Отправлено на повторную обработку: 14.06.2024*
*Принято к печати: 16.07.2024*

*The date of the admission of the article to the editorial office: 12.06.2024*
*Send for reprocessing: 14.06.2024*
*Accepted for publication: 16.07.2024*